# Qəbələdə «Aspi Winery» üzüm emalı zavodu istismara verilmişdir

(Əvvəli 6-cı səhifədə).

Daha sonra Prezident İlham Əliyev üzümün qəbulu prosesi ilə maraqlandı.

Prezident İlham Əliyev müəssisənin ayrı-ayrı istehsal sahələrini gəzdikdən sonra qablaşdırma sexində zavodu işə saldı və istehsal prosesini izlədi.

Qeyd edildi ki, "Aspi Winery" üzüm emalı müəssisəsinin illik istehsal gücü 1000 tondur. Zavod İtaliyanın ən məşhur şirkətlərinin avadanlığı ilə təchiz olunmuşdur. Hazırda burada 7 növ məhsul istehsal olunur. Gələcəkdə 11 növ məhsulun istehsalı planlaşdırılır.

Bildirildi ki, "Savalan" şərablarını məşhurlaşdıran hər şeydən əvvəl ideal coğrafi və iqlim şəraitidir. Belə şəraitdə yetişmiş üzüm özünəməxsus xüsusiyyətlərə malik autentik şəraba çevrilir. Bu, əsrlərlə formalaşan ənənələrin və müasir şərabçılıq meyillərinin ahəngidir.

Konyak istehsalı sexində Prezidentə məlumat verildi ki, zavodda bütün məhsullar yüksək ixtisaslı xarici mütəxəssislərin rəhbərliyi ilə istehsal olunur və yoxlanılır. Şərablar bütün müəyyən olunmuş normalara riayət edilməklə zirzəmidə palıd çəlləklərdə saxlanılır ki, bu da ona əlavə ətir verir. İstehsal olunan şərab məhsulları Rusiyaya ixrac olunur. Şərabların gələcəkdə Ukrayna, İtaliya, İsveç kimi ölkələrə ixrac edilməsi də planlaşdırılır.

Prezident İlham Əliyev müəssisədə şərab anbarına baxdı. Anbarda minimum silkələnmə, ciddi şəkildə müəyyənləşdirilmiş temperatur, rütubət və işıqlandırma, zəruri mikromühit mövcuddur. Məhsullar Fransadan və İtaliyadan alınan yüksək keyfiyyətli palıd çəlləklərdə və çənlərdə saxlanılır. Məhsulun belə çəlləklərdə saxlanması bərk zərrəciklərin çəlləyin dibinə çökməsinə səbəb olur ki, onları da oradan təmizləmək asanlaşır. Bundan əlavə, palıd çəlləklərdə saxlanılan əksər şərablar sadə içkini nəfis şəraba çevirməyə qadir xüsusi ətir verir.

Dövlət başçısı burada çalışan xarici mütəxəssislərlə söhbət etdi.

Məlumat verildi ki burada muzey də fəaliyyət göstərir. Muzeydə "Qədim Qəbələ", "Azərbaycanda qədim şərabçılıq" və "Şərabçılığın xronologiyası" posterləri, Qəbələdə arxeoloji qazıntılar zamanı aşkar olunan eksponatlar vardır. Burada ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev haqqında fotolar və sənədlər, həmçinin üzümçülük və şərabçılığın tarixi ilə bağlı kitablar və stendlər də nümayiş etdirilir, emal olunan məhsullar sərgilənir.

Prezident İlham Əliyev muzeydə üzümçülüklə bağlı sənədli filmə baxdı.

Bildirildi ki, zavodda ən müasir avadanlıqla təchiz edilən laboratoriya yaradılmışdır. İstehsal olunan məhsullar İngiltərədən alınan və MDB məkanında yalnız bu müəssisədə quraşdırılan lazer analiz aparatı ilə yoxlanır. Bu aparat kimyəvi preparatlarsız işləyir və bir dəqiqə ərzində şərabın və ya üzüm şirəsinin 24 parametrini maksimal dəqiqliklə müəyyən etməyə imkan verir. Standart laboratoriyalarda bu cür analizlər iki həftədən çox vaxt aparır.

Məlumat verildi ki, "Aspi Winery" üzüm emalı müəssisəsi hazırda layihə gücünün 20-30 faizi həddində fəaliyyət göstərir. "Aspi-Aqro"ya məxsus 340 hektar üzüm sahəsində İtaliyadan gətirilən 22 şərab sortu, 14 süfrə sortu üzümləri əkilmişdir. Həmin sahədə 200 nəfər mövsümi işlə təmin edilmişdir. Ən başlıcası isə bu müəssisə Qəbələ rayonunda əhalinin məşğulluğunun təminatında əhəmiyyətli rol oynayacaqdır.

Prezident İlham Əliyev dequstasiya otağı ilə də tanış oldu.

Dövlət başçısı kollektivə uğurlar arzuladı, müvafiq tapşırıq və tövsiyələrini verdi.

**AzərTAc.**

*Heydər Əliyev—90*

# Heydər Əliyev və gənclər siyasəti

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun və siyasi həyatın 30 ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi dahi şəxsiyyət Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Azərbaycanın görkəmli elm, mədəniyyət və incəsənət xadimlərini daim diqqət mərkəzində saxlayan ümummilli lider ölkəyə rəhbərliyi dövründə gəncləri də nəzərdən kənarda qoymadı, onları dəstəklədi və günün yenilikləri ilə istiqamətləndirdi. XX əsri həm siyasi, həm igtisadi, həm təhsil, həm idman, həm də mədəniyyət müstəvisində uğurla başa vuran Azərbaycan xalqı ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyevin azərbaycançılıq, vətənpərvərliklə yoğurulmuş siyasi mövqeyi, düzgün strateji kursu ilə XXI əsrə də inamlı , məğrur addımlarla qədəm qoydu. Heydər Əliyevin parlaq zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla addım atdı. Onun zəkası bütün sədləri yararaq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zaman dalğaları arasından salamat çıxarıb ona həm regionda, həm də dünyada layiqli yer qazandırdı. Azərbaycan ziyalısını son yüzilliklərdə ən ciddi şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin həmin illərdəki fəaliyyəti ilə strateji dövlət siyasətinə, elmdən, sosiologiyadan və fəlsəfədən əməli siyasət müstəvisinə keçdi. Qəbul olunan qanunlar, verilən sərəncamlar, edilən reformalar Azərbaycanı qloballaşan dünyanın inteqrasiyaya qabil, rəqabətə dözümlü demokratik bir ölkəsinə çevirdi. Bütün sahələri əhatə edən bu inovasiya və reformalar yalnız forma xarakteri daşımır, özlüyündə dərin məzmun kəsb edirdi. Heydər Əliyev formanı deyil, məzmunu, mahiyyəti əldə rəhbər tutaraq öz siyasi xəttini müəyyənləşdirdi. Təcrübəyə önəm verən, Azərbaycanın görkəmli elm, incəsənət xadimlərini daim diqqətdə saxlayan Heydər Əliyev, gəncləri də daim dəstəklədi, yeniliklərə səslədi. Məhz bu uğurlu strategiyanın nəticəsində keçmişin təcrübəsi və bugünün gənclərinin potensialı, inovativ dünya görüşünün vəhdəti Azərbaycanın mütərəqqi və demokratik dünya dövlətləri cərgəsinə qoşulmasına səbəb oldu. «Gənclik gələcəkdir» deyən Heydər Əliyev daim Azərbaycan gəncliyinə inandı və onu dəstəklədi. Belə ki, MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda milli liderimiz Heydər Əliyevin təşəbbüsü və sərəncamı ilə fevralın 2-si Gənclər günü elan edildi.1996-cı il fevralın 22-də Azərbaycan Respublikasında gənclərin I forumu keçirildi. Müxtəlif gənclər təşkilatları, gənclər birlikləri yaradıldı. «Cəmiyyətin gələcək tərəqqisi onun istedad və yaradıcılıq potensialı ilə birbaşa bağlıdır»—deyən Heydər Əliyev müasir dövrdə xüsusi istedada malik gənclərə tələbin çox böyük olduğunu və bu şəxslərin düzgün təhsil siyasəti nəticəsində formalaşa biləcəyini anlayırdı. Bununla da təhsil sahəsində islahatların keçirilməsinə start verildi. Yeni pedaqoji təfəkkürün metodoloji paradiqmalarına görə onun əzəməti ancaq və ancaq «bilik—intellekt—şəxsiyyət» triadası əsasında açıqlana bilərdi. Heydər Əliyevin dövlətçilik strateji proqramında təhsil məfkurəsi ilə bağlı diqqəti bir də məhz belə bir cəhət çəkir ki, totalitar sovet cəmiyyətində mövcud olan doqmatik təhsil sisteminin mütərəqqi, dünya təcrübəsində sınaqdan çıxmış interaktiv təlim ilə əvəz olunmasını zəruri sayırdı. Nitq və çıxışlarında tez-tez İlham Əliyevə inandığını və güvəndiyini bildirən Heydər Əliyev yanılmadı. Prezidentlik fəaliyyəti çərçivəsində İlham Əliyev ulu öndərimiz tərəfindən əsası qoyulan siyasi kursu davamlı və daha da şaxələndirərək inkişaf etdirdi. Bu inamlı siyasətin nəticəsidir ki, bu gün Azərbaycan gəncliyi özünə güvənən, inamlı, nə istədiyini bilən, gələcəyə inamlı addımlar atan bir qüvvəyə çevrilmişdir. 1999-cu ildə «Azərbaycan respublikasının təhsil sahəsində islahat proqramı» ilə start verilən islahatlar sonradan bir sıra qanun və reformaların qəbul olunmasına zəmin yaratdı. 2010-cu ildə «Ümumi təhsil pilləsinin dövlət standartı və proqpamları» kimi konseptual sənədin həyata vəsiqə alması bu islahatların kuliminasiya nöqtəsi sayıla bilər. Düzgün təhlil etmək, ümumiləşdirmə aparmaq, təsnif etmək, nəticə çıxarmaq, vaxtında və düzgün qərar qəbul etmək, proqnozlaşdırmaq kimi qabiliyyət və bacarıqları prioritet kimi qəbul edən müasir təhsil sistemi daha güclü, analiz və sintez etməyi bacaran, müstəqil fikri olan, öz yolunu seçməyi bacaran Azərbaycan gəncini formalaşdırmaq qudrətindədir. Nəticəyönümlü, şagirdyönümlü, şəxsiyyətyönümlü təlim hələ parta arxasında milli mənlik şüurunun formalaşmasına səbəb olur. Mən əminəm ki, müasir Azərbaycan gəncinin şəxsiyyət kimi püxtələşməsində təhsilimiz öz sözünü deyəcək.

Son hesablamalara görə Azərbaycanda hal-hazırda əhalinin 31 faizini gənclər təşkil edir. Bu isə çox böyük qüvvədir. Əminəm ki, müstəqil Azərbaycanın gəncləri Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsindən bəhrələnəcək, öz potensiallarından Azərbaycanın daha yüksək zirvələri fəth etməsi istiqamətində istifadə edəcəklər.

Ey igid azəri oğlu, ey qeyrətli azəri qızı, ey Azərbaycan gəncliyi! Sən öz qəhrəmanlıq tarixini, igidlik səlnaməni Zori Balayanların, Otxan Pamukların, Əkrəm Əylislilərin türk qanı ilə yazılmış əsərlərindən deyil, Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavadımın əyilməyən vüqarından, tarımın ah-naləsindən, balabanımın inləyən səsindən, son nəfəsini «Azərbaycan» deyə alan Babəkimin harayından, Mübariz İbrahimov cəsarətindən, Heydər Əliyev həyatından, Heydər Əliyev məktəbindən öyrən. Böyük ərəb mütəfəkkiri İbn Xədunun təbirincə desək, «Hər öyrədən müəllim deyil, kimdən ki, öyrənirik, müəllim odur». Heydər Əliyev elə bir müəllimdir ki, gənclər ondan hər zaman öyrənəcəklər: yaşamağı, yaşatmağı.

«Azərbaycan, mənim taxtım-tacım, oy, Oyanarmı kor olası baxtım, oy?!»—deyən Almas Yıldırımın, «Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim»—deyə haray qoparan Məmməd Arazın ruhu şad olsun, çünki indi Azərbaycan gənci qürurla «Cənnət görmək istəyən, Azərbaycana gəlsin» deyə hayqıra bilər. Çünki indi Azərbaycan gənci qayalarda bitən mamır deyil, vətənin düşmənləri qarşısında sərt qaya kimi durmuş yenilməz bir qüvvədir.

Ey vüqarlı, qürurlu Azərbaycan gənci! Başını dik tut. Hər zaman, hər yerdə «Azərbaycan deyiləndə ayağa dur ki, Ana yurdun ürəyinə toxuna bilər»—deyən xalq şairi Məmməd Arazın sözlərini heç vaxt unutma!

Ey məğrur Azərbaycan gənci! Hər zaman, hər yerdə qürurla de: «Mən fəxr edirəm ki, azərbaycanlıyam»—de ki, ulu öndər Heydər Əliyevin ruhu şad olsun.

**Mədinə QASIMOVA,**
**Vəndam qəsəbə 1 saylı tam orta məktəbin müəllimi.**